TARİX elmləri

UOT 94(479.24)
DOI: https://doi.org/10.30546/25194011.2026.201.2.4.5043

# CƏBRAYIL (KARYAGİN) QƏZASININ RUS ƏHALİSİ (XIX ƏSR – XX ƏSRİN ƏVVƏLLƏRİ)

**RƏNA BƏYLƏR QIZI ƏSƏDOVA**
*Tarix üzrə fəlsəfə doktoru, dosent*
*AMEA Tarix və Etnologiya İnstitutu,*
*Azərbaycan Universiteti,*
*Bakı ş., İstiqlaliyyət küç., 30. AZ1001*
*ORCID kod: 0000-0002-0310-6201*
*E-mail: rena-beyler@gmail.com*

**XÜLASƏ**

Rusiya imperiyası Qarabağ xanlığını özünə birləşdirdikdən sonra atdığı ilk addımlardan biri rus əhalisini regiona köçürmək oldu. Özünə etnik dayaq yaratmağa çalışan rus hakimiyyəti nümayəndələri yerli inzibati idarəçiliyə rus məmurlarını təyin etmək, regionda rus hərbi birlikləri yerləşdirməklə yanaşı, XIX əsrin 30-cu illərindən etibarən təriqətçi və bidətçi rus ailələrini köçürməyə başladılar. Cənubi Qafqazda ilk rus məskənlərindən biri xanlığın cənub bölgəsi olan Cəbrayıl mahalında (qəzasında) Qarabulaq kəndində yaradıldı. Rusların köçürülməsi yerli azərbaycanlı əhalinin gündəlik həyatına, etno-demoqrafik proseslərə güclü təsir göstərdi. Təqdim edilən məqalədə Cəbrayıl (Karyagin) qəzasına rus əhalisinin köçürülməsi, sonrakı onilliklərdə onların sayında baş vermiş dəyişikliklər araşdırılmış, onun doğurduğu nəticələr təhlil edilmişdir.

**Açar sözlər:** *Cəbrayıl mahalı, təriqətçi rusların köçürülməsi, Qarabulaq kəndi, molokan ailələri, Karyagin qəzası, Qrafskoye kəndi.*

## Giriş

Rusiya imperiyası Cənubi Qafqazı 1828-ci il Türkmənçay sülh müqaviləsi ilə özünə qəti şəkildə birləşdirdikdən dərhal sonra regionda dayaqlarını möhkəmləndirmək üçün tədbirlər görməyə başladı. Bu sahədə ilk addımlardan biri imperator I Nikolayın 20 oktyabr 1830-cu il tarixli fərmanı ilə rus təriqətçi və köhnə inanclı ailələrinin: molokan, duxobor və subbotniklərin Cənubi Qafqaza kütləvi şəkildə köçürülməsi oldu. Bu fərman iki mühüm məqsəd güdürdü: Rusiyanın mərkəzi quberniyalarında dini zəmində qarşıdurmadan xilas olmaq və yeni birləşdirilmiş ərazilərdə Rusiyanın təsirini möhkəmləndirmək. İlk köçürülənlər 1830-cu ildə Orenburq quberniyasından gələn molokan ailələri oldu. Onlar Qarabağ əyalətinin Qızıl Qışlaq kəndində yerləşdirildilər [1]. 1833-cü ildən etibarən rus təriqətçilərinin məcburi şəkildə Şirvan, Qarabağ və Lənkəran əyalətlərinə göndərilməsi baş verdi. Nəticədə Vel, Privolnoye, Prişib, Nikolayevka, Slavyanka, İvanovka adlı yaşayış məntəqələri yarandı.

Artıq 1844-cü ildə Cənubi Qafqazda 30-dan çox rus kəndi mövcud idi və rus əhalisinin də sayı 8 360 nəfərə çatmışdı [2, c.35-36]. Bu yaşayış məskənlərinin, demək olar ki, hamısı yerli azərbaycanlı əhalinin ata-baba torpaqlarında salınmışdı. Rus ailələrinin məskunlaşdırılması üçün yerli azərbaycanlı əhalinin yaylaq və qışlaqlarından kütləvi şəkildə torpaq sahələri ayrıldı. Otlaqların bu məqsədlə müsadirə edilməsi yerli azərbaycanlı əhalinin ənənəvi yarımköçəri maldarlıq təsərrüfatına ciddi ziyan vurdu.

Cəbrayıl bölgəsinin ilk rus sakinləri. Cəbrayıl mahalına ilk dəfə rusların nə zaman köçürülməsi haqqında məlumatlar ziddiyyətlidir. Füzuli şəhəri haqqında ensiklopedik xarakterli bir mənbədə Qarabulaq kəndinin 1827-ci ildə Qarabağın cənubunda sərhəd məntəqəsi – forpost kimi yaradıldığı qeyd edilmişdir [3]. Yelizavetpol quberniyasının təsərrüfat həyatı və əhalisi haqqında qiymətli araşdırmaların müəllifi P.Seqala görə isə, 1833-cü ildə Rusiyadan köçürülən 40 molokan (təriqətçi) ailəsi Qarabulaq kəndində yerləşdirildi [4, c.3]. Bizim fikrimizcə, Qarabulaq kəndində molokan ailələrinin 1833-cü ildə yerləşdirilməsi məlumatı daha gerçəkdir. Həm də Rusiyanın Qacarlar dövləti ilə müharibəsinin davam etdiyi bir zamanda, sərhədlərin hələ dəqiqləşdirilmədiyi bir zamanda rus dövlətinin forpost yaratmağa girişməsi məntiqli sayıla bilməz.

Təriqətçi ailələri ilk mərhələdə rus hakimiyyəti nümayəndələri tərəfindən Qarabağın əkinçilik üçün çox əlverişli yerində məskunlaşdırıldı. Bu mərhələnin fərqləndirici xüsusiyyəti təriqətçi ailələrinin aşkar şəkildə dağətəyi və dağətəyinə yaxın düzənlik zolağına meyl etməsi idi. Çünki bu ərazilərdə torpaq çox məhsuldar idi və dağlardan axan çayların suyu ilə suvarılması asan idi.

Yerli azərbaycanlı əhali yeni köçürülən rus ailələrini mehribanlıqla qarşıladı, onlara ev-eşik qurmaqda, təsərrüfatlarını yaratmaqda hər cür köməklik etdi. 1872-ci il avqustun 11-də Şuşa qəzasının Qarabulaq kəndində molokan ailələri yaşayan məhəllədə güclü yanğın baş verdi. Onların 24 evindən 22-si yanıb yararsız hala düşdü. Həmin evlərin sakinləri evsiz qaldı. Bu zaman qonşu kəndlərin sakinləri onların köməyinə gəlmiş, yanğından zərər çəkən insanlara, öz din-

daşları olmasa da, çox səxavətlə taxıl və digər ərzaq ləvazimatları şəklində yardım göstərmişdilər [3].

Nəticədə, çox qısa müddət ərzində Qarabulaq kəndində həyat nomal məcrasına döndü. 1873-cü il kameral təsvirinə görə Qarabulaq kəndində 175 nəfər molokan yaşayırdı ki, onların da 84 nəfəri kişi, 91 nəfəri qadın idi [5, c.XLII].

Cəbrayıl qəzasında 1886-cı il siyahıyaalmasına görə 45 rus ailəsi (həyəti) mövcud idi. Bu ailələrdə 104 nəfəri kişi, 109 nəfəri qadın olmaqla cəmi 213 nəfər yaşayırdı. Rus ailələrinin hamısı Qarabulaq kəndində məskunlaşmışdı. Onların içərisində rus təriqətçilərinin sayı aşağıdakı kimi idi: 76 nəfər kişi və 90 nəfər qadın molokan, 12 nəfər kişi və 7 nəfər qadın subbotnik, 16 nəfər kişi və 12 nəfər qadın pruqın [6, c.278, 233, 280].

1897-ci ildə keçirilmiş ilk Ümumrusiya siyahıyaalmasına əsasən, Cəbrayıl qəzasında 66 360 nəfər əhali yaşayırdı. Qəza əhalisinin əksəriyyətini – 49 189 nəfərini və ya 74,12 faizini tatarlar (azərbaycanlılar – R.Ə.) təşkil edirdi [7, c. VII, 1-3]. Rusiya işğalından sonra qəzaya rusların, əsasən də təriqətçi rus ailələrinin köçürülməsinin nəticəsi olaraq, 1897-ci ildə qəzada 904 nəfər rus yaşayırdı. Rus əhalisinin 563 nəfəri pravoslav (506 nəfər kişi və 57 nəfər qadın), 341 nəfəri təriqətçi (168 nəfəri kişi və 173 nəfəri qadın) idi [7, c.60] ki, bu da ümumi əhalinin 1,36 faizinə bərabər idi.

Cəbrayıl qəzasının mərkəzinin Cəbrayıl məntəqəsindən Qarabulaq kəndinə köçürülməsi ilə bu yaşayış məntəqəsi inzibati nərkəzə çevrildi. Bu haqda çar II Nikolayın 1905-ci il martın 18-də verdiyi fərmanla Qarabulaq kəndinin adı dəyişdirilib Karyagino adlandırıldı, Cəbrayıl qəzasının inzibati mərkəzi də Cəbrayıl məntəqəsindən Karyagino kəndinə (indiki Füzuli şəhəri – R.Ə.) köçürüldü. Bölgənin də Karyagin qəzası adlandırılmasına qərar verildi [8, c.189]. Buna səbəb 1805-ci ildə polkovnik P.Karyaginin başçılıq etdiyi rus hərbi dəstəsinin həmin ərazidə Qacar şahzadəsi Abbas Mirzənin qoşunlarının hücumunu dəf etməsinin Rusiya hakimiyyəti tərəfindən 100 illiyinin qeyd olunması idi. Bu hadisədən sonra Karyagino kəndinin regionun iqtisadi mərkəzi kimi əhəmiyyəti kəskin şəkildə yüksəldi, əhalisinin sayı da daha sürətlə artmağa başladı.

1917-cü il üçün "Qafqaz təqvimi"nə görə, Karyagino kəndi bəhs olunan dövrdə həm də 10 yaşayış məntəqəsini ( Gecəgözlü, Aybasanlı, Qrafskoye, Comərdli, Dövlətyarlı, Zərgər, Karyagino, Mahmudlu-2, Mirzəcamallı və Şıxılı) əhatə edən kənd cəmiyyətinin mərkəzi idi [9, на 1917 г., отд. стат., с. 59].

1905-ci ildə Karyagin qəzasında 150 nəfər kişi və 152 nəfər qadın olmaqla, cəmi 302 nəfər molokan yaşayırdı [9, на 1907 г., отд. стат., с. 233-237]. Qəzada həmin vaxt yalnız Qarabulaq – Karyagino kəndində təriqətçi rus əhalinin yaşadığı nəzərə alınarsa, bu statistik göstəricilərin həmin yaşayış məntəqəsinə aid olduğu aydınlaşır.

"Yelizavetpol quberniyasının 1908-ci il üzrə şərhi" adlı mənbəyə görə Karyagin kənd cəmiyyəti ərazisində Qrafskoye adlı yeni rus kəndi salındı. Bu yeni yaradılan kəndə Saratov quberniyasından 5 nəfər, Samara quberniyasından 14 nəfər, Bakı quberniyasından 13 nəfər, Qars vilayətindən 7 nəfər, Yelizavetpol quberniyasının eyniadlı qəzasındakı Borisı və Zəngəzur qəzasının Bazarçay kəndlərindən 19 nəfər köçürülüb yerləşdirildi. Qrafskoye kəndinin bu yeni 59 nəfər sakininə 186 desyatin yararlı torpaq sahələri verildi. Tiflis Məhkəmə Palatasının təsdiq etdiyi qərara görə bu torpaq sahələri xəzinəyə aid olan Macuklu adlı ərazidən ayrılmışdı [10, за 1908 г., вед. № 3].

Həmin mənbəyə görə 1908-ci ildə qəzada cəmi 1 289 nəfər rus yaşayırdı. Onların 751 nəfər kişi və 152 nəfər qadın olmaqla, cəmi 903 nəfəri pravoslav rus, 201 nəfəri kişi və 185 nəfəri qadın olmaqla təriqətçi (molokan – R.Ə.) idi [10, за 1908 г., вед. № 1,2]. Onlardan əlavə, qəzada həmçinin 71 nəfər polyak, alman və digər Avropa xalqının nümayəndəsi yaşayırdı. Həmin il Karyagin qəzasında 36 907 kişi və 34 300 qadın olmaqla, cəmi 71 207 nəfər əhali yaşadığı nəzərə alınarsa, bu əhalinin 1,8 faizinin ruslar təşkil etdiyi aydın olur.

1910-cu il üçün "Qafqaz təqvimi"nə görə, 1907-ci ildə Karyagino kəndində 365 nəfər [9, на 1910 г., отд. стат., c.279], 1908-ci ildə 188 nəfər kişi və 177 nəfər qadın olmaqla, cəmi 367 nəfərdən ibarət 51 təriqətçi ailə [11, на 1910 г., отд. III, c.67], 1911-ci ilin əvvəlində – 550 nəfər [9, на 1912 г., отд. стат., c.166], 1912-ci ilin əvvəlində 426 nəfər nəfər [9, на 1913 г., отд. стат., c.132], 1914-cü ilin əvvəlində – 400 nəfər [9, на 1915 г., отд. стат., c.137] təriqətçi rus əhalisi yaşayırdı.

"Qafqaz təqvimi"nin məlumatlarına görə, 1911-ci ilin başlanğıcında Karyagin qəzasının Qrafskoye kəndində 35 nəfər [9, на 1912 г., отд. стат., c.141], 1914-cü ilin başlanğıcında 42 nəfər rus [9, на 1915 г., отд. стат., c.112] yaşayırdı.

XIX əsrin ikinci yarısı – XX əsrin ilk onilliklərində Cəbrayıl (Karyagin) qəzasında rus əhalisinin sayının necə dəyişməsi 1 saylı cədvəldə əks olunmuşdur (cədvəl müəllif tərəfindən kameral təsvirlər, Yelizavetpol quberniyasının 1880-1912-cü illər üzrə şərhləri, 1897-ci il Ümumrusiya siyahıyaalması və Qafqaz təqviminin məlumatları əsasında tərtib edilmişdir).

**1 saylı cədvəl**
**XIX əsrin ikinci yarısı – XX əsrin ilk onilliklərində Cəbrayıl (Karyagin) qəzasının rus əhalisi**

| İllər | Əhalinin ümumi sayı | O cümlədən | |
|---|---|---|---|
| | | Kişilər | Qadınlar |
| 1874 | 175 | “ | “ |
| 1886 | 213 | 104 | 109 |
| 1892 | 233 | 113 | 120 |
| 1895 | 215 | 122 | 133 |
| 1897 | 904 | 674 | 230 |
| 1905 | 302 | 150 | 152 |
| 1907 | 365 | “ | “ |
| 1908 | 1 289 | 952 | 337 |

XX əsrin əvvəllərində Azərbaycana rus əhalisinin köçürülüb yerləşdirilməsi davam edirdi. 1910-cu ildə Karyagin qəzasına 35 nəfər rus köçürülmüş və onlara 262 desyatin yararlı torpaq sahəsi ayrılmışdı [12, c.26]. Bu sayın qismən az olması onunla əlaqədar idi ki, Rusiya hakimiyyəti nümayəndələri həmin dövrdə pambıqçılığı inkişaf etdirmək üçün yeni köçürülən rus ailələrini başlıca olaraq Muğan bölgəsində məskunlaşdırmağa çalışırdılar. 1910-cu ildə Cavad qəzasına 7 173 nəfər rusun köçürülməsi və onlara 97 585 desyatin yararlı torpaq ayrılması [12 c.26] bu siyasətin nəticəsi idi.

**Nəticə**

Cəbrayıl (Karyagin) qəzasında XIX əsrdə və XX əsrin ilk onilliklərində əhalinin sayı və etnik tərkibi üzrə statistik göstəricilərin təhlili göstərir ki, bəhs edilən dövrdə regionda bütövlükdə rus əhalinin sayında ciddi artım baş vermişdi. Regionda 1873-cü ildə cəmi 175 nəfər molokan yaşadığı halda, 1916-cı ildə rus əhalinin sayı 2 083 nəfərə çatmışdı, yəni keçən 43 il ərzində 12 dəfə artmışdı. Yalnız Birinci dünya müharibəsi dövründə xristian əhalinin, o cümlədən rusların kütləvi şəkildə səfərbərliyə alınmasının baş verməsi, bu tendensiyaya son qoydu.

Cəbrayıl (Karyagin) qəzasında məskunlaşan rus təriqətçi əhalisi regionun təsərrüfat həyatına da müəyyən təsir göstərdi. Rus məskunların təsərrüfat fəaliyyətində kənd təsərrüfatının müxtəlif sahələri, əsasən də əkinçilik, bağçılıq və tərəvəzçilik mühüm yer tuturdu. Həmçinin molokan və duxobor ailələri heyvandarlıqla məşğul olur, bazara süd məhsulları çıxarırdılar. Arıçılıq da inkişaf etmişdi.

Sonrakı onilliklərdə rus məskunları ilə yerli azərbaycanlı əhalisi arasında təsərrüfat sahəsində təcrübə mübadiləsi baş verirdi. Rus kəndliləri azərbaycanlılardan müxtəlif kənd təsərrüfatı bitkilərinin yerli sortlarını və onlara qulluq üsullarını mənimsədilər, yerli suvarma üsullarından və s. istifadə etməyə başladılar. Azərbaycanlılar da rus kəndlilərindən kartof, kələm və s. tərəvəz məhsulları becərməyi, müxtəlif süd məhsullarından (kəsmik, xama) istifadə etməyi öyrəndilər. Ümumiyyətlə isə, rus məskunları heç bir basqı olmadan öz mədəni-etnoqrafik xüsusiyyətlərini, adət-ənənələrini qoruyub saxladılar ki, bunlar da Azərbaycanda tarixən yaşayan bütün xalqlara, onların adət-ənənələrinə tolerant yanaşılmanın nəticəsidir.

**ƏDƏBİYYAT SİYAHISI:**


*1. Адаптация «сектантов» - переселенцев-старожилов в Азербайджане в XIX в. // https://azerhistory.com/?p=29513*

*2. Исмаил-заде Д.И. Русское крестьянство в Закавказье: 30-е годы XIX - начало XX в. М., Наука, 1982, 310 с.*

*3. Физули (город) // https://ru.wikipedia.org/wiki/Физули_(город)#cite_note-11*

*4. Сегаль П.Л. Русские поселяне в Елисаветпольской губернии // Кавказ, № 40, Тифлис, 02.03.1890*

*5. Таблица народонаселении Кавказского края по вероисповедениям // Сборник сведений о Кавказе. Тифлис, Типография гл. упр. Кавказ. Наместника, 1880, с.XXXII-XLIV*

*6. Свод статистических данных о населении Закавказского края, извлеченных из посемейных списков 1886 г. Тифлис, Типография И.Мартиросианца, 1893*

*7. Первая Всеобщая перепись населения Российской империи 1897 г. Под ред. (и с предисл.) Н.А.Тройницкого). Елисаветпольская губерния, т. 63, СПб.: издание Центрального стат. комитета МВД, 1904, XII, 184 с.*

*8. О переводе уездных учреждений Джебраильского уезда Елисаветполской губернии, из урочища Джебраил в селении Карабулаг и о переименовании названного селения в селение Карягино и Джебраильского уезда в Карягинский. 18 марта 1905 г. // Полное собрание законов Российской империи. Собрание 3-е, т. 25, ч. 1, 1905 г., док. №25989, СПб, Тип. 2-го Отд-ния Собств. Е.И.В. канцелярии, 1908, с.189*

*9. Кавказский календарь на 1870-1917 гг. Тифлис: Типография гл. упр. Кавказ. Наместника, 1869-1916*

*10. Обзор Елизаветпольской губернии за 1880-1914 гг. Елисаветполь, 1880-1914*

*11. Памятная книга Елисаветпольской губернии на 1910 год. Елисаветполь, Типография Гу-*

бернского Правления, 1910 // file:///C:/Users/user/Downloads/bx000021431_0001.pdf (Дата обращения – 10.06.2026)

12. Багиров Ф.Э. Переселенческая политика царизма в Азербайджане (1830-1914 гг.). М.: Маросейка, 2009, 704 с.

**Рена Беглер Асадова**
***Доктор философии по истории, доцент***

## РУССКОЕ НАСЕЛЕНИЕ ДЖЕБРАИЛЬСКОГО (КАРЯГИНСКОГО) УЕЗДА (XIX – НАЧАЛО XX ВЕКОВ)

### РЕЗЮМЕ

Одним из первых шагов, предпринятых Российской империей после аннексии Карабахского ханства, стало переселение русского населения в этот регион. Представители российских властей, стремясь создать для себя этническую опору, начали назначать российских чиновников в местные органы власти и размещать в регионе российские воинские части, а с 1830-х годов приступили к переселению семей русских сектантов и раскольников. Одно из первых русских поселений на Южном Кавказе было создано в южной части ханства – Джебраильском магале (уезде), в селе Гарабулаг. Переселение русских оказало сильное влияние на повседневную жизнь местного азербайджанского населения и этно-демографические процессы. В представленной статье исследуется переселение русского населения в Джебраильский (Карягинский) уезд, изменения его численности в последующие десятилетия, а также анализируются вызванные этим последствия.

**Ключевые слова:** *Джебраильский магал, переселение русских сектантов, село Гарабулаг, молоканские семьи, Карягинский уезд, село Графское.*

*Rəyçi: Tarix elmlər doktoru, professor Fazil Baxşəliyev*
*Məqalə redaksiyaya daxil olub: 12.04.2026*
*Çapa qəbul olunub: 29.04.2026*

**Rana Begler Asadova**
***Doctor of Philosophy in History, Associate Professor***

## THE RUSSIAN POPULATION OF THE JABRAYIL (KARYAGIN) DISTRICT (19TH – EARLY 20TH CENTURIES)

### SUMMARY

One of the initial steps taken by the Russian Empire following the annexation of the Karabakh Khanate was the resettlement of the Russian population into the region. Russian authorities, seeking to establish an ethnic foothold for themselves, began appointing Russian officials to local government bodies and stationing Russian military units in the region. Starting from the 1830s, they initiated the resettlement of families of Russian sectarians and schismatics. One of the first Russian settlements in the South Caucasus was established in the southern part of the khanate – specifically in the Garabulag village of the Jabrayil mahal. The Russian resettlement exerted a profound impact on the daily lives of the local Azerbaijani population and on ethno-demographic processes. This article examines the resettlement of the Russian population into the Jabrayil (Karyagin) district, tracks changes in its numbers over the subsequent decades, and analyzes the consequences brought about by these shifts.

**Keywords:** *Jabrayil mahal, resettlement of Russian sectarians, Garabulag village, Molokan families, Karyagin district, Grafskoye village.*

*The date of the admission of the article to the editorial office: 12.04.2026*
*Accepted for publication: 29.04.2026*